# Polis haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### I fəsil
### ÜMUMİ MÜDDƏALAR

M a d d ə 1. **Əsas anlayışlar**

Bu qanunda aşağıdakı anlayışlardan istifadə olunur:

**polis** – Azərbaycan Respublikasının icra hakimiyyətinə mənsub olan vahid mərkəzləşdirilmiş, hüquq-mühafizə orqanıdır;

**polis əməkdaşı** – polis orqanlarında müəyyən vəzifə tutan və bu qanunla müəyyənləşdirilmiş səlahiyyətləri həyata keçirən dövlət qulluqçusudur;

**tutulma** – Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda və qaydada şəxsin azadlığının qısa müddətə məhdudlaşdırılmaqla onun müvəqqəti saxlanılma yerində saxlanılmasıdır;

**həbs** – inzibati xətanın törədilməsinə görə inzibati tənbeh kimi və ya qətimkan tədbiri qismində Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəllə-sində nəzərdə tutulmuş hallarda və qaydada şəxsin azadlığım müvəqqəti məhdudlaşdırmaqla müvafiq həbsdə saxlanılma yerində saxlanılmasıdır;[1]

**fiziki qüvvə** – insan əzələlərinin gərilməsi nəticəsində yaranan güc vasitəsi ilə mexaniki təsir göstərmək qabiliyyətidir;

**xüsusi vasitələr** – dəyənəklər, əl-qolu bağlama və elektroşok vasitələri, xüsusi təyinatlı gözyaşardıcı qazlar, rezin güllələr, suatan vasitələr, nəqliyyatın məcburi dayandırma vasitələri və Azərbaycan Respublikasının qanunları ilə müəyyənləşdirilmiş digər xüsusi vasitələrdir;[2]

***yaşayış yeri*** *– bir və ya bir neçə şəxsin yaşaması üçün müvəqqəti, yaxud daimi istifadə edilən yer, o cümlədən ev, mənzil, bağ evi, mehmanxanada, sanatoriyada, pansionatda, yataqxanada, istirahət evində, kempinqdə, turist bazasında otaq, onlara bilavasitə bitişik aynabəndlər, terraslar, qalereyalar, eyvanlar, ümumi istifadə üçün yerlər (onların istirahət, əmlak saxlamaq, yaxud insanların digər tələbatlarını təmin etmək üçün istifadə olunan digər tərkib hissələri), çoxmənzilli evdən başqa tikililərin zirzəmisi və çardağı, habelə dəniz gəmisinin kayutu və ya uzaq səfərdə olan qatarın kupesidir (bunlardan əlavə bu Qanunun məqsədləri üçün yaşayış yeri anlayışı fiziki şəxsin xidməti kabinetini, ona məxsus çəpərli torpaq sahəsini, avtomobili, çay və dəniz gəmisini əhatə edir).*[3]

M a d d ə 2. **Polis haqqında qanunvericilik**

Polis haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

M a d d ə 3 . **Polis təyinatı və əsas vəzifələri**

I. Azərbaycan Respublikasında polisin təyinatı insanların həyatını, sağlamlığını, hüquq və azadlıqlarını, dövlətin, fiziki və hüquqi şəxslərin qanuni mənafelərini və mülkiyyətini hüquqa zidd əməllərdən qorumaqdan ibarətdir.

II. Polisin əsas vəzifələri aşağıdakılardır:

1) ictimai qaydanı qorumaq və ictimai təhlükəsizliyi təmin etmək;

2) cinayətlərin və digər xətaların qarşısının alınması üçün tədbirlər görmək;

2-1) yetkinlik yaşına çatmayanların hüquq pozuntularının qarşısının alınması sahəsində fəaliyyət göstərmək;[4]

3) şəxsiyyəti, insan hüquq və azadlıqlarını və mülkiyyəti hüquqa zidd əməllərdən qorumaq;

4) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş hallarda dövlət idarələrini və digər obyektləri mühafizə etmək;

5) törədilmiş cinayətləri açmaq;

6) cinayətlərin qeydiyyatını və uçotunu aparmaq;

7) cinayətkarları aşkara çıxarmaq və tutmaq;

8) səlahiyyətlərinə aid edilmiş işlər üzrə təhqiqat və istintaq aparmaq;

9) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş səlahiyyətlər daxilində inzibati tənbeh və ya başqa təsir tədbirləri tətbiq etmək, tutulmuş və inzibati xətaya görə həbsə alınmış şəxsləri saxlamaq;[5]

10) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək;

11) kriminalistik və başqa tədqiqatların aparılmasını təmin etmək;

12) Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada istintaq təcridxanalarında əməliyyat-axtarış fəaliyyətini müvafiq icra hakimiyyəti orqanı ilə birgə həyata keçirmək;[6]

13) hüquqi və fiziki şəxslərin əmlakını hüquqa zidd əməllərdən qorumaq məqsədi ilə müqavilələr bağlamaq;

14) Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş icazə-qeydiyyat işlərini aparmaq;

15) yol hərəkəti qaydalarına və hərəkət təhlükəsizliyinə riayət olunmasına nəzarət etmək;

16) yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görmək;

17) yol hərəkəti və onun təhlükəsizliyi göstəricilərinin vahid dövlət uçotu sistemini təşkil etmək.

III. Polisi bu Qanunla müəyyən edilməmiş vəzifələrin icrasına cəlb etmək qadağandır.

M a d d ə 4 . **Polisin fəaliyyət prinsipləri və istiqamətləri**

I. Polis insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət, qanunçuluq, humanistlik və təkbaşçılıq prinsipləri əsasında fəaliyyət göstərir.

II. Polisin fəaliyyətinin əsas istiqamətləri aşağıdakılardır:

1) ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi;

2) cinayətlərin və digər xətaların qarşısının alınması və açılması;[7]

3) yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi.

M a d d ə 5 . **İnsan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində polisin fəaliyyəti**

I. Polis öz vəzifələrini yerinə yetirərkən irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq bütün şəxslərin Azərbaycan Respublikasının Konstitusiyasında və tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdə nəzərdə tutulmuş hüquqlarını və qanuni mənafelərini hüquqa zidd əməllərdən qoruyur.

II. Polisin hər hansı şəxslə insanın ləyaqətini alçaldan şəkildə rəftar etməsi yolverilməzdir. Cinayət törədən və ya törətməkdə şübhələnilən şəxsləri məlumat verməyə və ya cinayət əməlini törətməkdə təqsirini etiraf etməyə məcbur etmək, bu məqsədlə onları və digər şəxsləri hədələmək, işgəncəyə məruz qoymaq, onlara hər hansı fiziki və ya mənəvi təsir göstərmək qadağandır.

III. Şəxsin hüquq və azadlıqlarına qarşı polis tərəfindən bu Qanunla nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsinə yalnız Azərbaycan Respublikasının qanunları ilə müəyyən olunmuş əsaslarla və qaydada yol verilir.

IV. Hər hansı şəxsin hüquq və azadlıqları məhdudlaşdırıldıqda polis əməkdaşı məhdudlaşdırmanın əsaslarını və səbəblərini, habelə bununla əlaqədar həmin şəxsin hüquq və vəzifələrini ona izah etməlidir.

V. Polis tutulan və ya həbsə alınan şəxsin hüquqlarının həyata keçirilməsini təmin edir.

VI. Şəxsin hüquqları, azadlıqları və qanuni mənafeləri polis əməkdaşları tərəfindən pozulduqda polis orqanı həmin şəxsin pozulmuş hüquqlarının, azadlıqlarının və qanuni mənafelərinin bərpa olunması üçün zəruri tədbirlər görməyə, vurulan ziyanı ödəməyə borcludur.

VII. Polis əməkdaşlarının qanuna zidd hərəkətləri nəticəsində vurulmuş ziyan Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunan qaydada ödənilir.

M a d d ə 6 . **Polisin fəaliyyətində aşkarlıq**

I. Polis öz fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada dövlət orqanlarına və əhaliyə məlumat verir.

II. Polisə dövlət, ailə, peşə və kommersiya sirrini, prokurorun, müstəntiqin və ya məhkəmənin müvafiq icazəsi olmadan ibtidai və məhkəmə istintaq materiallarını, habelə insanların şəxsi həyatına, fiziki və hüquqi şəxslərin qanuni mənafelərinə toxunan, onların ləyaqətini alçalda bilən məlumatları açıqlamaq qadağandır.[8]

III. Fiziki və hüquqi şəxslər haqqında polisin yaydığı məlumatların həqiqətə uyğun olmadığı müəyyənləşdirildikdə polis bir ay müddətində həmin məlumatları onların yayıldığı formada təkzib etməlidir.

M a d d ə 7 . **Polisin qanuni tələblərinin icrasının məcburiliyi**

I. Polis əməkdaşı bu qanunla müəyyənləşdirilmiş səlahiyyətləri yerinə yetirərkən dövlət hakimiyyətinin nümayəndəsi kimi çıxış edir.

II. Azərbaycan Respublikasının ərazisində olan bütün hüquqi və fiziki şəxslər polis əməkdaşının qanuni tələblərini icra etməlidirlər.

III. Polis əməkdaşının qanuni tələblərinə tabe olmamaq, ona müqavimət göstərmək və zor işlətmək və ya onu təhqir etmək Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

M a d d ə 8 . **Polisin fəaliyyətinə müdaxilənin yolverilməzliyi**

Qanunla səlahiyyət verilmiş şəxslərdən başqa, hər hansı şəxsin istənilən səbəbdən polisin qanuni fəaliyyətinə məhdudiyyət qoyması, təsir və müdaxilə etməsi yolverilməzdir və Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq qaydada məsuliyyətə səbəb olur.

M a d d ə 9 . **Polisin tərkib hissələri və tabeliyi**

Polis xidmətlərinin yaradılması, yenidən qurulması və ləğvi, polisin fəaliyyətinə rəhbərlik, polis orqanlarında vəzifəyə təyin və vəzifədən azad etmə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi qaydada həyata keçirilir.

M a d d ə 1 0 . **Polisin vəzifələrinin yerinə yetirilməsində dövlət orqanlarının, yerli özünüidarəetmə orqanlarının və ayrı-ayrı şəxslərin iştirakı**[9]

I. Dövlət hakimiyyəti orqanları və yerli özünüidarətmə orqanları polisə öz vəzifələrini yerinə yetirməkdə kömək göstərməlidirlər.

II. Hər bir şəxs polisə öz vəzifələrini yerinə yetirməkdə kömək göstərə bilər. Polis, üzərinə düşən vəzifələri yerinə yetirmək üçün, heç kəsi əməkdaşlığa məcburi cəlb edə bilməz.

III. Hazırlanan, törədilən və ya törədilmiş cinayət barəsində xəbəri olan hər bir şəxs bu barədə polisə məlumat verməlidir. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş hallarda bu məlumatların verilməməsi cinayət məsuliyyətinə səbəb olur.

IV. Polis əməkdaşı olmayan dövlət hakimiyyəti orqanlarının əməkdaşları Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada ictimai asayişin və təhlükəsizliyin təmin olunması işinə cəlb edildikdə bu sahədə polisin

vəzifələri onların da üzərinə qoyulur. Belə olduğu halda polis əməkdaşları üçün nəzərdə tutulan hüquqi, maddi və sosial təminatlar onlara da şamil edilir.

*V. Yaşayış yeri üzrə ictimai asayişin və ictimai təhlükəsizliyin təmin edilməsi ilə bağlı yaranan sosial problemlərin birgə həlli üçün ayrı-ayrı şəxslər könüllülük əsasında polis orqanları tərəfindən ictimai asayişin və təhlükəsizliyin təmin olunması işinə cəlb edilə bilərlər. İctimai asayişin və təhlükəsizliyin təmin olunmasında könüllü olaraq iştirak edən şəxslərin fəaliyyətinin əlaqələndirilməsi üçün yerli polis orqanlarının yanında ictimai şuralar yaradıla bilər.*

*İctimai asayişin və təhlükəsizliyin təmin olunması üzrə könüllü ictimai fəaliyyət aşağıdakı istiqamətlərdə həyata keçirilir:*

*1) hüquqazidd və cəmiyyətə qarşı hörmətsiz davranışın qarşısının alınması məqsədilə maarifləndirmə və təbliğat işinin aparılması;*

*2) narkomaniyanın və alkoqolizmin, həmçinin yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası;*

*3) cinayətlərin və digər hüquqpozmaların qarşısının alınmasını və araşdırılmasını təmin etmək məqsədilə zəruri məlumatların polis orqanlarına verilməsi.*

*Cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, psixi xəstəliklə, narkomanlıqla, alkoqolizmlə bağlı müalicə-profilaktika müəssisələrində qeydiyyatda olan, fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyətliliyi məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə təsdiq edilmiş şəxslər ictimai asayişin və təhlükəsizliyin təmin olunması üzrə könüllü ictimai fəaliyyətə cəlb edilə bilməzlər.*

### M a d d ə 1 1 . **Polisin beynəlxalq əlaqələri**

Azərbaycan Respublikasının polis orqanlarının xarici ölkələrin polis orqanları və beynəlxalq polis təşkilatları ilə əməkdaşlığı Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, xarici ölkələrin polis orqanları ilə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanın bağladığı müqavilələr, habelə Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq polis təşkilatlarının nizamnamələri və əsasnamələri ilə tənzimlənir.

### M a d d ə 1 2 . **Polisin fəaliyyətinə nəzarət**

I. Bu qanunun müddəalarının icrasına idarədaxili və idarədənkənar nəzarət həyata keçirilir.

II. Polisin fəaliyyətinə idarədaxili nəzarəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş səlahiyyətlər çərçivəsində müvafiq icra hakimiyyəti orqanı, idarədənkənar nəzarəti isə müvafiq icra hakimiyyəti həyata keçirir. Polis orqanlarında qanunların icrasına nəzarəti qanunla müəyyən edilmiş səlahiyyətləri daxilində məhkəmələr və prokurorluq orqanları həyata keçirir.

## I I f ə s i l
## POLİS ƏMƏKDAŞININ SƏLAHİYYƏTLƏRİ

### M a d d ə 1 3 . **Polis əməkdaşının ümumi vəzifələri**

I. Polis əməkdaşının ümumi vəzifələri aşağıdakılardır:

1) Hazırlanan cinayət və ya digər hüquqpozmaların qarşısının alınması üçün təxirəsalınmaz tədbirlər görmək;

2) cinayət və ya digər hüquqpozmalar törətmiş şəxsin tutulması və polisə gətirilməsi üçün tədbirlər görmək;

3) cinayətin baş verdiyi hadisə yerinin mühafizəsini təşkil etmək və şahidlərin müəyyənləşdirilməsi üçün tədbirlər görmək;

4) cinayətdən və digər hüquqpozmalardan, bədbəxt hadisədən zərərçəkmişlərə, həmçinin köməksiz, həyatı və sağlamlığı üçün təhlükəli vəziyyətə düşmüş şəxsə kömək və ilk tibbi yardımın göstərilməsini təmin etmək;

5) tutulmuş və ya həbsə alınmış şəxsin hüquqlarının və qanuni mənafelərinin pozulmamasını təmin etmək;

6) təbii fəlakətlər, qəzalar və digər fövqəladə hallar baş verdikdə insanların və əmlakın xilasetmə tədbirlərində iştirak etmək;

*6-1) yetkinlik yaşına çatmayanların hüquq pozuntularının qarşısının alınmasına yönəldilmiş tədbirlər həyata keçirmək;*[10]

7) səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş davranış qaydalarına riayət etmək.

II. Polis əməkdaşları öz vəzifələrini həyata keçirərkən ayrıca əmr və ya göstəriş gözləmədən əməkdaşlıq etməyə, qarşılıqlı fəaliyyət göstərməyə və bir-birinə hərtərəfli kömək etməyə borcludurlar.

III. Hər hansı şəxsə müraciət edərkən polis əməkdaşı adını, soyadını, rütbəsini bildirməli və xidməti vəsiqəsini göstərməklə özünü təqdim etməlidir.

IV. Polis əməkdaşı öz səlahiyyətlərini həyata keçirərkən bilavasitə və birbaşa rəisinə tabedir.

V. Polis əməkdaşı həmçinin tabeçilik üzrə yuxarı rəisin əmr və göstərişlərini icra etməyə borcludur.

VI. Hər hansı vəzifələrin yerinə yetirilməsinə cəlb edildikdə, polis əməkdaşı xidmət üzrə tabeliyi olmayan polisin yuxarı rütbəli şəxsinin əmr və göstərişlərini icra etməyə borcludur.

VII. Polis əməkdaşı açıq-aşkar qanuna zidd əmr və ya göstəriş aldıqda qanunu rəhbər tutmalı, bu barədə polisin rəhbərliyinə məlumat verməlidir.

VIII. Açıq-aşkar qanunsuz əmri və ya göstərişi icra etməmək məsuliyyətə səbəb olmur. Belə əmri və ya göstərişi icra edən polis əməkdaşı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada məsuliyyət daşıyır.

### M a d d ə 1 4 . **İctimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində polis əməkdaşının vəzifələri**

İctimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində polis əməkdaşının vəzifələri aşağıdakılardır:

1) Hər bir şəxsin təhlükəsizliyini təmin etmək;

2) Azərbaycan Respublikasının qanunvericiliyi ilə səlahiyyətlərinə aid edilmiş inzibati xətalara dair işlər üzrə icraatı aparmaq;[11]

3) Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda təhqiqat, istintaq orqanlarının*, məhkəmələrin, müvafiq icra hakimiyyəti orqanının icra və probasiya qurumlarının* qərarlarını icra etmək;[12]

*4) Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi, "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda və müddətlərdə tutulmuş və ya həbs edilmiş şəxsi müvəqqəti saxlama yerində saxlamaq;*[13]

5) Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş əşyaların, o cümlədən odlu silahın, döyüş sursatının, zəhərli maddələrin və sair zərərli materialların əldə edilməsi, saxlanması, gəzdirilməsi, daşınması üçün müəyyənləşdirilmiş qaydada icazə vermək, dövriyyəsinə nəzarət etmək, çoxaldıcı rəngli qurğuların (kseroksların) qeydiyyatını aparmaq;

6) Azərbaycan Respublikasının bütün ərazisində və ya ayrı-ayrı yerlərində tətbiq edilən fövqəladə və ya hərbi vəziyyət rejimini təmin etmək, epidemiya və ya epizootiya zamanı karantin tədbirlərinin həyata keçirilməsində iştirak etmək;

7) kütləvi tədbirlər zamanı ictimai asayişi təmin etmək;

*7-1) kütləvi idman tədbirlərinin və idman yarışlarının keçirilməsi zamanı idman obyektlərində, tamaşaçılar üçün nəzərdə tutulmuş yerlərdə, eləcə də idman obyektlərinə bitişik ərazilərdə və təxliyyə yollarında zorakılığın qarşısını almaq, yarış iştirakçılarının və tamaşaçıların təhlükəsizliyini və ictimai asayişi təmin etmək;*[14]

8) müvafiq dövlət orqanlarına və vəzifəli şəxslərə, yaxud qanuni sahiblərinə təhvil verilənədək sahibsiz əmlakın və dəfinələrin, habelə tapılmış və polisə təhvil verilmiş sənədlərin, əşyaların və digər əmlakın saxlanılmasını və mühafizəsini təmin etmək;

9) Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallarda qeydiyyat və uçot işlərini aparmaq;

10) digər dövlət orqanları və ictimai təşkilatlarla birlikdə azyaşlılar arasında hüquq qaydasının pozulmasının və nəzarətsizliyin qarşısının alınmasında iştirak etmək;

11) cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsini təmin etmək;

12) hüquqi və fiziki şəxslərin əmlakını hüquqa zidd əməllərdən qorumaq;

13) Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

M a d d ə  1 5 . **Cinayətlərin və digər hüquqpozmaların qarşısının alınması və onların açılması sahəsində polis əməkdaşının vəzifələri**

Cinayətlərin və digər hüquqpozmaların qarşısının alınması və onların açılması sahəsində polis əməkdaşının vəzifələri aşağıdakılardır:

1) cinayətin və digər hüquqpozmanın qarşısının alınması, baş vermiş cinayət hadisəsinin aşkara çıxarılması və onu törədən şəxsin müəyyənləşdirilməsi, cinayəti doğuran səbəblərin öyrənilməsi və aradan qaldırılması üçün tədbirlər görmək;

2) cinayət və digər hüquqpozmalar haqqında daxil olan ərizələrin və məlumatların qəbul edilməsini, qeydiyyatdan keçirilməsini və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada tədbirlərin görülməsini təmin etmək;

3) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş hallarda və qaydada cinayət işlərini başlamaq, təhqiqat və istintaq aparmaq;

4) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək;

5) bu maddənin 1-4-cü bəndlərində göstərilən məsələlər üzrə məhkəmənin (hakimin) və ya prokurorun qərarlarını, habelə müstəntiqin və ya təhqiqatçının qərarlarını və yazılı tapşırıqlarını icra etmək.

*M a d d ə 15-1.* ***Yetkinlik yaşına çatmayanların hüquq pozuntularının qarşısının alınması sahəsində polis əməkdaşının vəzifələri***[15]

*Yetkinlik yaşına çatmayanların hüquq pozuntularının qarşısının alınması sahəsində polis əməkdaşının vəzifələri aşağıdakılardır:*

*1) yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında qanunvericilikdə göstərilmiş yetkinlik yaşına çatmayanlar, habelə onların tərbiyəsi, təhsili və saxlanması üzrə öz vəzifələrini* üzrlü səbəblər olmadan *yerinə yetirməyən və ya onların davranışına mənfi təsir göstərən, yaxud onlarla qəddar rəftar edən valideynlər və ya digər qanuni nümayəndələr barəsində profilaktik iş aparmaq;*[16]

*2) yetkinlik yaşına çatmayanların qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsi barədə məhkəmənin qərarını yetkinlik yaşına çatmayanın qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə çatdırılması hissəsində icra etmək;*

*3) inzibati məsuliyyətə və ya cinayət məsuliyyətinə cəlb olunması üçün Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş yaş həddinə çatmamış yetkinlik yaşına çatmayanlar tərəfindən ictimai təhlükəli əməllərin törədilməsi, habelə yetkinlik yaşına çatmayanların tərbiyəsi, təhsili və saxlanılması üzrə öz vəzifələrini yerinə yetirməyən və ya lazımınca yerinə yetirməyən valideynlər və ya digər qanuni nümayəndələr, yaxud vəzifəli şəxslər barəsində müraciətlərə öz səlahiyyətləri daxilində baxmaq;*

*4) müvafiq dövlət orqanlarına və müəssisələrə yetkinlik yaşına çatmayanların baxımsızlığına, qanunazidd əməllər törətməsinə imkan yaradan səbəb və hallar barədə məlumat vermək.*

M a d d ə 16. **Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində polis əməkdaşının vəzifələri**

Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində polis əməkdaşının vəzifələri aşağıdakılardır:

1) nəqliyyatın və piyadaların hərəkətini nizama salmaq sürücülər və piyadalar tərəfindən yol hərəkəti qaydalarının gözlənilməsinə nəzarət etmək, yol hərəkətinin təhlükəsizliyini təmin etmək;

2) yolların təmiri, tikintisi, layihələşdirilməsi, istismarı və onlara xidmət zamanı yol hərəkəti təhlükəsizliyinin tələbləri ilə bağlı qüvvədə olan qaydalara, normativlərə

və standartlara əməl olunmasına nəzarət sahəsində öz səlahiyyətləri daxilində müvafiq tədbirlər görmək;

3) nəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarət etmək;

4) təşkilati-hüquqi formasından asılı olmayaraq bütün müəssisələr, idarələr, təşkilatlar və fiziki şəxslər tərəfindən yol hərəkəti təhlükəsizliyinin təmin olunması, avtonəqliyyat vasitələrinin zərərli tullantılarından ətraf mühitin qorunması sahəsində qüvvədə olan qaydaların, normativlərin və standartların tələblərinə riayət edilməsində dövlət nəzarətini təmin etmək;

5) yol hərəkəti qaydalarının pozulması və yol nəqliyyat hadisələri üzrə təhqiqat aparmaq, səlahiyyətləri çərçivəsində inzibati tənbeh tədbirləri tətbiq etmək;

6) yol hərəkəti qaydaları və sürücülük vərdişləri üzrə imtahanlar qəbul etmək və nəqliyyat vasitələrini idarə etmək hüququ verən sürücülük vəsiqələrini vermək;

7) nəqliyyat vasitələrinin və qoşquların qeydiyyatını aparmaq, onlara dövlət nömrə nişanlarını vermək.

M a d d ə 1 7 . **Polis əməkdaşının ümumi hüquqları**

Üzərinə düşən vəzifələrin yerinə yetirilməsi üçün polis əməkdaşının aşağıdakı hüquqları vardır:

1) hər bir şəxsdən cinayətlərə və digər hüquqpozmalara, şəxsiyyət və ictimai asayiş üçün təhlükə törədən və onlara şərait yaradan hərəkətlərə son qoyulmasını tələb etmək;

2) cinayət və ya inzibati xəta törətməkdə şübhə edilənlərin şəxsiyyətini müəyyənləşdirmək üçün sənədlərini yoxlamaq;[17]

3) qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada cinayət və ya digər hüquqpozma törətmiş yaxud törədilməsində şübhələnilən şəxsi tutmaq;

4) cinayətin və digər hüquqpozmanın törədilməsinə şərait yaradan halların aradan qaldırılması üçün qanunla müəyyənləşdirilmiş qaydada dövlət və qeyri-dövlət orqanlarına, müəssisələrə, idarələrə, təşkilatlara, siyasi partiyalara, ictimai birliklərə, həmkarlar ittifaqları təşkilatlarına və vəzifəli şəxslərə baxılması məcburi olan təqdimatlar vermək;

5) qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada yaşayış binalarına və ya digər tikililərə, torpaq sahələrinə, müəssisə, idarə, təşkilatların ərazilərinə və tikililərinə daxil olmaq;[18]

6) xarici dövlətlərin diplomatik, konsulluq və başqa nümayəndəliklərinə, beynəlxalq təşkilatlara məxsus olan və xüsusi təyinatlı nəqliyyat vasitələri istisna edilməklə, son zərurət vəziyyətində hüquqi və fiziki şəxslərə məxsus olan nəqliyyat vasitələrində hadisə yerinə getmək, təcili tibbi yardıma ehtiyacı olan şəxsləri tibb müəssisələrinə çatdırmaq və cinayət törətmiş şəxsləri təqib etmək üçün bu nəqliyyat vasitələrindən istifadə etmək (belə hallarda nəqliyyat vasitələri sahiblərinin tələbi ilə onlara dəymiş ziyan polis tərəfindən ödənilməlidir);

7) dəbilqə, qalxan, zirehli köynək və digər fərdi mühafizə vasitələrindən istifadə etmək;

8) bu Qanunla müəyyənləşdirilmiş qaydada və hallarda fiziki qüvvə işlətmək, habelə xüsusi vasitələr və odlu silah saxlamaq, gəzdirmək və onları tətbiq etmək.

M a d d ə  1 8 . **İctimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində polis əməkdaşının hüquqları**

İctimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində polis əməkdaşının aşağıdakı hüquqları vardır:

1) inzibati xətalara dair işlər üzrə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan tədbirləri görmək;

2) ictimai qayda və ya insanların təhlükəsizliyi üçün təhlükə yarandıqda ərazilərə və binalara girişi və orada olmağı məhdudlaşdırmaq, aparılan işləri dayandırmaq, nəqliyyatın hərəkətini məhdudlaşdırmaq və ya qadağan etmək;

3) inzibati xəta törətmiş şəxs barəsində protokol tərtib etmək, şəxsi *axtarış aparmaq*, əşyalarını yoxlamaq, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada və müddətdə onu polisdə saxlamaq;[19]

4) cinayət və ya inzibati xəta törətməkdə şübhələnilən hərbi qulluqçuları tutub hərbi patrullara, hərbi komendanta, qoşun hissələrinin komandirlərinə və ya hərbi komissarlara təhvil vermək;[20]

5) ictimai yerlərdə sərxoş vəziyyətdə olan və müstəqil hərəkət etmək qabiliyyətini itirən, özünə və ya ətrafdakılara zərər yetirə bilən şəxsi xüsusi tibb müəssisələrinə gətirmək;

6) inzibati qaydada həbs edilmiş, inzibati nəzarətdə olan, habelə polisdə profilaktika uçotunda olan şəxslərin fotoşəkilini çəkmək və qanunla müəyyən edilmiş hallarda barmaq izlərini götürmək;[21]

7) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş hallarda və qaydada avaralıqla və ya dilənçiliklə məşğul olan şəxsi qəbuletmə-bölüşdürmə məntəqəsinə gətirmək;

8) ictimai təhlükəli əməllərə görə məhkəmənin qərarı ilə təyin olunmuş tibbi xarakterli məcburi tədbirlərdən yayınan ruhi xəstələri, xroniki alkoqolikləri, narkomanları tutmaq və xüsusi tibb müəssisələrinə gətirmək;

~~9) qanunla müəyyənləşdirmiş hallarda və qaydada təyin olunmuş tərbiyəvi xarakterli məcburi tədbirlərdən yayınan yetkinlik yaşına çatmayan şəxsi tutmaq və xüsusi tərbiyə müəssisəsinə gətirmək;~~[22]

10) hüquqi və fiziki şəxslər tərəfindən odlu silahın, döyüş sursatının, zəhərli maddələrin və digər zərərli materialların saxlandığı və istifadə olunduğu yerlərə, habelə onların dövriyyədə olduğu obyektlərə (hərbi obyektlər istisna olmaqla) baxış keçirmək, bu cür əşyaların, maddələrin və materialların istifadəsi barədə müəyyənləşdirilmiş qaydaların pozulduğu aşkar edildikdə qüsurların aradan qaldırılması haqqında icrası məcburi olan yazılı göstərişlər vermək və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan digər tədbirləri görmək;

11) saxtalaşdırma əlaməti olan sənədləri, habelə mülki dövriyyədən çıxarılmış və xüsusi icazə olmadan saxlanılan əşyaları, maddələri, materialları və qurğuları götürmək, sahibsiz əmlakın saxlanılmasını təmin etmək və Azərbaycan Respublikasının

qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada onlar barəsində məsələnin həll edilməsi üçün tədbirlər görmək.

M a d d ə 1 9 . **Cinayətlərin və digər hüquqpozmaların qarşısının alınması və onların açılması sahəsində polis əməkdaşının hüquqları**

Cinayətlərin və digər hüquqpozmaların qarşısının alınması və onların açılması sahəsində polis əməkdaşının aşağıdakı hüquqları vardır:

1) hazırlanan və törədilmiş cinayətlər haqqında ərizə və məlumatları yoxlamaq;

2) cinayətin açılması, təhqiqatın və istintaqın aparılması ilə əlaqədar hüquqi və fiziki şəxslərdən, dövlət sirri təşkil edən sənədlər istisna olmaqla, zəruri izahatlar, məlumatlar, arayışlar, sənədlər almaq, cinayət törətməkdə şübhələnilən şəxslərin barmaq izlərini götürmək, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada prosessual hərəkətləri həyata keçirmək;

3) əməliyyat-axtarış fəaliyyəti ilə əlaqədar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş hüquqları həyata keçirmək;

4) cinayətin törədilməsi şəraitinin, onu törədən şəxsin, zərərçəkənlərin və şahidlərin müəyyənləşdirilməsi, gizlənən cinayətkarların və xəbərsiz itkin düşmüş şəxslərin axtarışı üçün dövlət informasiya vasitələrinin imkanlarından pulsuz istifadə etmək.

*M a d d ə 1 9 - 1 .* ***Yetkinlik yaşına çatmayanların hüquq pozuntularının qarşısının alınması sahəsində polis əməkdaşının hüquqları***[23]

*Yetkinlik yaşına çatmayanların hüquq pozuntularının qarşısının alınması sahəsində polis əməkdaşının aşağıdakı hüquqları vardır:*

*1) yetkinlik yaşına çatmayanları cinayətkar fəaliyyətə, fahişəliyə və ya digər əxlaqsız əməllərə cəlb etmiş, yaxud yetkinlik yaşına çatmayanlar barəsində digər qanunazidd əməllər törətmiş şəxsləri, habelə yetkinlik yaşına çatmayanların tərbiyəsi, təhsili və saxlanılması üzrə öz vəzifələrini* üzrlü səbəblər olmadan *yerinə yetirməyən və ya lazımınca yerinə yetirməyən valideynləri və ya digər qanuni nümayəndələri, vəzifəli şəxsləri aşkar etmək, onlar barəsində öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş tədbirlər görmək;*

*2) yetkinlik yaşına çatmayanlar tərəfindən hüquq pozuntularının törədilməsinə şərait yaradan səbəb və halların aradan qaldırılması üzrə öz səlahiyyətləri daxilində tədbirlər görmək, bu barədə müvafiq dövlət orqanlarına, idarə, təşkilat və müəssisələrə təkliflər vermək;*

*3) hüquq pozuntuları törətmiş yetkinlik yaşına çatmayanlar barəsində, habelə onların tərbiyəsi, təhsili və saxlanılması üzrə öz vəzifələrini* üzrlü səbəblər olmadan *yerinə yetirməyən və ya lazımınca yerinə yetirməyən və ya onların tərbiyəsinə mənfi təsir göstərən, yaxud onlarla qəddar rəftar edən valideynlər və ya digər qanuni nümayəndələr, yaxud vəzifəli şəxslər barəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada tədbirlər görmək, habelə müvafiq təsir tədbirlərinin tətbiq edilməsi haqqında müvafiq dövlət orqanlarına təkliflər vermək;*

*4) qanunla müəyyənləşdirilmiş hallarda və qaydada məhkəmənin qərarına əsasən yetkinlik yaşına çatmayan şəxsi saxlamaq və yetkinlik yaşına çatmayanlar üçün müvəqqəti təcridetmə mərkəzinə gətirmək, habelə qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsini icazəsiz tərk etmiş yetkinlik yaşına çatmayan şəxsin müəssisəyə qaytarılması üçün tədbirlər görmək.*

M a d d ə  2 0 . **Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində polis əməkdaşının hüquqları**

Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində polis əməkdaşının aşağıdakı hüquqları vardır:

1) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş hallarda və qaydada nəqliyyat vasitəsini saxlamaq, onu idarə edən şəxsin sürücülük hüququna dair sənədlərini və daşınan yükün sənədlərini yoxlamaq;

2) nəqliyyat vasitəsini idarə edən şəxsin sərxoş olub-olmadığını müəyyənləşdirmək üçün texniki vasitələrdən istifadə etmək və ya həmin şəxsin tibbi müayinəsini təşkil etmək;

3) qanunla müəyyənləşdirilmiş hallarda və qaydada nəqliyyat vasitəsini idarə edən şəxsi və nəqliyyat vasitəsini yol hərəkətində iştirakdan kənarlaşdırmaq;

4) yol hərəkəti qaydalarını pozanlardan, yol-nəqliyyat hadisəsinin iştirakçılarından və şahidlərindən izahat almaq və zəruri hallarda onları polisə çağırmaq;

5) yol hərəkəti qaydalarının pozulmasına görə inzibati tənbeh tədbirləri tətbiq etmək, sürücülük hüququndan məhrum etmək barədə materialları məhkəməyə göndərmək;

6) yol hərəkətinin təhlükəsizliyi qaydalarına əməl edilmədikdə yollarda təmir-tikinti və digər işlərin görülməsini məhdudlaşdırmaq və ya qadağan etmək;

7) təbii fəlakətlər zamanı, habelə qəza təhlükəsinin aradan qaldırılması ilə əlaqədar yol hərəkətini məhdudlaşdırmaq və ya qadağan etmək;

8) texniki vəziyyəti müəyyənləşdirmiş tələblərə uyğun gəlməyən nəqliyyat vasitələrinin istismarını qadağan etmək;

9) nəqliyyat vasitəsini idarə edən şəxsin və onunla birlikdə olan sərnişinlərin cinayət törətdiyi və ya törədilməsində şübhələnilməsi haqqında dəqiq məlumatı olduqda, habelə nəqliyyat vasitəsinin idarə olunması ilə cinayət törədilməsinə real təhlükə yarandıqda nəqliyyat vasitəsini təqib etmək.

## I I I  f ə s i l
## ŞƏXSİN AZADLIQ, MƏNZİL TOXUNULMAZLIĞI HÜQUQLARININ MƏHDUDLAŞDIRILMASI, FİZİKİ QÜVVƏNİN, XÜSUSİ VASİTƏLƏRİN VƏ YA ODLU SİLAHIN TƏTBİQİ İLƏ BAĞLI POLİS ƏMƏKDAŞININ SƏLAHİYYƏTLƏRİ

M a d d ə  2 1 . **Polis tərəfindən azadlıq hüququnun məhdudlaşdırılması**

I. Polis əməkdaşı şəxsin azadlıq hüququnu hakimin qərarına əsasən tutulma və həbsəalma yolu ilə yalnız aşağıdakı hallarda məhdudlaşdıra bilər:[KM]

1) cinayət və ya inzibati hüquqpozma törədilməsində şübhəli olduqda, yaxud cinayət və ya inzibati hüquqpozma törətməsinə görə həbs olunduqda;

2) yetkinlik yaşına çatmamış şəxs üzərində tərbiyəvi nəzarət həyata keçirildikdə və ya səlahiyyətli orqana gətirildikdə;

3) yoluxucu xəstəliklərin yayılmasının qarşısı alındıqda, habelə ruhi xəstələr, alkoqoliklər, narkomanlar və avaralıqla məşğul olanlar zərərsizləşdirildikdə;

4) şəxsin ölkəyə qanunsuz gəlməsinin qarşısı alındıqda və ya şəxs ölkədən çıxarıldıqda, yaxud başqa dövlətə verildikdə;

5) təqsirləndirilən şəxsin, cavabdehin, şahidin məhkəmə iclasına gəlməsini təmin etdikdə, atalığın müəyyənləşdirilməsi üçün test keçirildikdə, psixi müayinə aparıldıqda və ya hər hansı öhdəliyin yerinə yetirilməsi (müqavilə öhdəlikləri istisna olmaqla) təmin edildikdə.

II. Polis əməkdaşı hər hansı şəxsi o vaxt tuta və ya həbsə ala bilər ki, məhkəmənin (hakimin) qərarında məhz həmin şəxsin azadlıq hüququnun məhdudlaşdırılması nəzərdə tutulsun.

III. Polis əməkdaşı tərəfindən məhkəmənin (hakimin) qərarı olmadan hər hansı şəxsin təxirəsalınmadan tutulmasına yalnız aşağıdakı hallarda yol verilə bilər: [24]

1) şəxs cinayət ~~və ya inzibati xəta~~ törədərkən, yaxud törətdikdən bilavasitə sonra yaxalandıqda;

2) hadisəni bilavasitə görənlər, o cümlədən zərər çəkmiş şəxslər məhz həmin şəxsin cinayət ~~və ya inzibati xəta~~ törətdiyini göstərdikdə;[25]

3) şübhə edilən şəxsdə və ya onun paltarında, ona məxsus digər əşyalarda və ya *yaşayış yerində, nəqliyyat vasitəsində cinayətin* izləri tapıldıqda.[26]

*III-I. Şəxsin inzibati qaydada tutulması Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş hallarda həyata keçirilir.*[27]

~~IV. Cinayət və ya inzibati xəta törədilməsi ilə əlaqədar tutulmuş və ya həbsə alınmış şəxsin, onun məsələsinə tezliklə məhkəmədə baxılmasını tələb etmək hüququ vardır.~~[28]

V. Şəxsin qanunsuz tutulmasına və ya həbsə alınmasına yol vermiş polis əməkdaşı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş məsuliyyət daşıyır.

M a d d ə 2 2 . **Polis tərəfindən azadlıq hüququnun məhdudlaşdırılma müddətləri**

I. Bu qanunun 21-ci maddəsinin I hissəsində nəzərdə tutulmuş hallarda hər hansı şəxsin azadlıq hüququnun məhdudlaşdırılma müddəti yalnız qanunla müəyyənləşdirilir.

II. Bu qanunun 21-ci maddəsinin *III və III-I hissələrində* nəzərdə tutulmuş hallarda hər hansı şəxsin azadlıq hüququnun məhdudlaşdırılması müddətləri inzibati xətanın törədilməsi ilə əlaqədar Azərbaycan Respublikasının inzibati xətalar haqqında qanunvericiliyi ilə, cinayətin törədilməsi ilə əlaqədar isə Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi ilə müəyyənləşdirilir.[29]

M a d d ə 2 3 . **Azadlıq hüququnun məhdudlaşdırılması ilə bağlı polis əməkdaşının vəzifələri**

I. Azadlıq hüququnun məhdudlaşdırılması ilə bağlı səlahiyyətlərini həyata keçirən polis əməkdaşı:

1) zəruri müdafiə və son zərurət halları istisna olmaqla şəxsin tutulması və ya həbsə alınması zamanı təhlükəsiz üsul və vasitələrdən istifadə etməlidir;

2) tutulan və ya həbsə alınan şəxsə özünü təqdim etməklə xidməti vəsiqəsini göstərməlidir;

3) tutulmadan dərhal sonra şəxsə tutulmanın *səbəbini, şübhənin mahiyyətini* bildirməli, özünə və yaxın qohumlarına qarşı ifadə verməmək, müdafiəçinin yardımından istifadə etmək hüquqlarını *ona aydın olan dildə* izah etməlidir;[30]

4) tutulmuş və ya həbsə alınmış şəxsi təxirəsalınmadan polis orqanına gətirməli, tutulma və ya həbsəalma faktını Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada protokollaşdırmalı, tutulmuş və ya həbsə alınmış şəxsi bu protokolla tanış etməli, hər bir tutulma və ya həbsə alma faktını müvafiq polis orqanında qeydiyyatdan keçirməlidir;

*5) tutulmuş və ya həbs edilmiş şəxs həbs yerinə gətirildikdən dərhal sonra ona tutulduğu və ya həbsə alındığı və harada saxlanıldığı barədə yaxın qohumlarına və ya əlaqə saxlaması onun üçün qanuni maraq doğuran digər şəxslərə telefonla və ya digər vasitələrlə məlumat vermək imkanını yaratmalıdır (tutulmuş və ya həbs edilmiş şəxsin qocalığı, yetkinlik yaşına çatmaması, sağlamlıq və psixi vəziyyəti ilə bağlı hallar istisna olmaqla, belə məlumatları öz təşəbbüsü ilə verməməlidir); əgər tutulmuş və ya həbs edilmiş şəxs əcnəbi, yaxud vətəndaşlığı olmayan şəxsdirsə, onun vətəndaşı olduğu və ya daimi yaşadığı dövlətin Azərbaycan Respublikasında olan diplomatik nümayəndəliyinə və ya konsulluğuna, yaxud ona himayədarlığı öz üzərinə götürmüş milli, yaxud beynəlxalq təşkilata bu barədə dərhal məlumat verməli və bu cür məlumatın verildiyini qeydə almalıdır;*[31]

6) tutulmuş və ya həbsə alınmış şəxsin tələbi ilə habelə müdafiəçinin iştirakı məcburi olan hallarda həmin şəxsin müdafiəçinin köməyindən istifadə etmək hüququnu təmin etməlidir;[32]

7) tutulmuş və ya həbsə alınmış şəxslə davranışda onun şəxsiyyətinə və ləyaqətinə hörmətlə yanaşmalı, qadınlara, yetkinlik yaşına çatmayanlara, qocalara, xəstələrə və əlillərə xüsusi diqqət yetirməlidir;

~~8) Azərbaycan Respublikasının qanunları ilə müəyyənləşdirilmiş tutulma və ya həbsəalma müddətlərinə riayət etməli, bu müddətlər keçənədək tutulan və ya həbsə alınan şəxsi, onun tutulmasının və ya həbsə alınmasının qanuniliyini müəyyənləşdirmək üçün hakimin yanına gətirməlidir;~~

~~9) 3 saatdan artıq müddətə tutulmuş və ya həbsə alınmış şəxs barədə onun tutulmasından və ya həbsə alınmasından 24 saat keçənədək hakimə yazılı məlumat verməlidir;~~[33]

10) məhkəmənin (hakimin) qərarına əsasən, habelə tutulma və ya həbsəalma müddətləri keçəndən sonra tutulan və ya həbsə alınan şəxsi dərhal azad etməlidir.

II. Polis əməkdaşı tutulmuş və ya həbs edilmiş şəxsin Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər hüquqlarını təmin edir.[34]

**M a d d ə 2 4 . Polis tərəfindən mənzil toxunulmazlığı hüququnun məhdudlaşdırılması**

I. polis əməkdaşı tərəfindən hər hansı şəxsin mənzil toxunulmazlığı hüququnun məhdudlaşdırmasına və *yaşayış yerinə* orada yaşayanların iradəsi ziddinə daxil olmasına yalnız aşağıdakı hallarda qanunvericiliklə müəyyən edilmiş qaydada yol verilir:[35]

1) hakimin qərarı olduqda;

2) digər şəxslərin hüquq və azadlıqlarının qorunması, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması və yaxud ağır cinayətlərin, bədbəxt hadisələrin, təbii fəlakətlərin, qəzaların, epidemiyaların və epizootiyaların qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması məqsədi ilə təxirəsalınmaz tədbirlər həyata keçirildikdə.

*II. Hakimin qərarı olmadan polis əməkdaşı yaşayış yerinə orada yaşayanların iradəsi ziddinə aşağıdakı əsaslardan birinin olması barədə dəqiq məlumatı olduğu halda bu Qanunun 25-ci maddəsində müəyyən edilmiş qaydada daxil olur:*[36]

*1) şəxsiyyət və ya dövlət hakimiyyəti əleyhinə cinayətin törədilməsinə və ya həmin cinayətin törədilməsinə hazırlığın aparılmasına dəlalət edən əşya və ya sənədlərin yaşayış yerində gizlədilməsi;*

*2) şəxsiyyət və ya dövlət hakimiyyəti əleyhinə cinayəti hazırlayan, törədən, törətmiş, azadlıqdan məhrum etmə və ya həbs yerlərindən, yaxud mühafizə altından qaçmış şəxsin yaşayış yerində gizlənməsi;*

*3) yaşayış yerində insan meyitinin (meyit hissələrinin) olması;*

*4) yaşayış yerində insanın həyat və ya səhhəti üçün real təhlükənin olması;*

*5) cinayət törətmiş şəxsin bilavasitə "isti izlərlə" təqib edilməsi.*

III. Məhkəmənin (hakimin) qərarı və ya bu maddənin I və II hissələrində göstərilmiş hallardan və əsaslardan hər hansı biri olmadan mənzil toxunulmazlığı hüququnu məqsədəuyğunluq, müvəqqəti zərurilik və ya digər mülahizələrlə məhdudlaşdırmaq qadağandır.

~~IV. Bu maddənin II hissəsinin əsasında mənzilə orada yaşayanların iradəsi ziddinə daxilolma faktı barəsində 24 saat ərzində hakimə yazılı məlumat verilməlidir.~~[37]

V. Bu maddənin müddəaları fiziki və ya hüquqi şəxslərə məxsus qeyri-yaşayış binalarına, tikililərə, torpaq sahələrinə və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş digər obyektlərinə daxilolma hallarına da şamil edilir.

VI. Mənzil toxunulmazlığı hüququnun qanunsuz məhdudlaşdırılmasına yol vermiş polis əməkdaşı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş məsuliyyət daşıyır.

**M a d d ə 2 5 . Mənzil toxunulmazlığı hüququnun məhdudlaşdırılması ilə bağlı polis əməkdaşının vəzifələri**

I. Mənzil toxunulmazlığı hüququnun məhdudlaşdırılması ilə bağlı səlahiyyətlərini həyata keçirən polis əməkdaşı:

1) Bu Qanunun 24-cü maddəsinin I və II hissələrində göstərilmiş hallar və əsaslar olmadan *yaşayış yerinə* orada yaşayanların iradəsi ziddinə əsassız daxil olmamalıdır;[38]

2) *yaşayış yerinə* daxil olmazdan əvvəl orada yaşayan və ya müvəqqəti qalan başqa şəxsə *yaşayış yerinə* daxilolmanın əsaslarını bildirməlidir;

3) *yaşayış yerinə* daxilolma ilə əlaqədar *yaşayış yerində* yaşayan şəxsə onun hüquqlarını, həmin şəxs *yaşayış yerinə* daxil olmağa icazə vermədikdə isə onun qanuna zidd hərəkət etdiyini izah etməlidir;[39]

4) *yaşayış yerinə* orada yaşayanların iradəsi ziddinə daxilolma zamanı zəruri müdafiə və ya son zərurət halları istisna olmaqla, təhlükəsiz üsul və vasitələrdən istifadə etməli, *yaşayış yerində* olan şəxslərin şərəf və ləyaqətinə, həyatı və sağlamlığına, mülkiyyətinə hörmətlə yanaşmalı, zərurət olmadan zərər vurulmasına yol verməməlidir;

5) *yaşayış yerinə* orada yaşayanların iradəsi ziddinə daxilolma faktını Azərbaycan Respublikasının qanunları ilə müəyyənləşdirilmiş qaydada təxirəsalınmadan protokollaşdırmalı və müvafiq polis orqanında qeydiyyatdan keçirməlidir;

~~6) mənzilə orada yaşayanların iradəsi ziddinə hər bir daxilolma faktı barəsində 24 saat ərzində hakimə yazılı məlumat verməlidir;~~[40]

7) *yaşayış yerinə* daxilolma ilə əlaqədar *yaşayış yerində* yaşayanların şəxsi və ailə həyatının ona məlum olmuş hallarını açıqlamamalıdır.[41]

*II. Polis əməkdaşı mənzil toxunulmazlığı hüququnun məhdudlaşdırılması ilə bağlı Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirməlidir.*[42]

### M a d d ə 2 6 . **Polis tərəfindən fiziki qüvvənin, xüsusi vasitələrin və ya odlu silahın tətbiqi**

I. Polis əməkdaşı onun qanuni tələblərini icra etməyən hər hansı şəxsə qarşı yalnız aşağıdakı hallarda fiziki qüvvə tətbiq edə bilər:

1) hazırlanan və ya törədilən cinayətin qarşısı alındıqda;

2) inzibati xətanı və ya cinayət törədən şəxs tutulduqda;[43]

3) hər hansı hüquqpozmanın törədilməsində güc işlədildikdə.

II. Polis əməkdaşı onun qanuni tələblərini icra etməyən hər hansı şəxsə qarşı xüsusi vasitələri aşağıdakı hallarda tətbiq edə bilər:

1) insan həyatına və sağlamlığına real təhlükə yaradan basqın və ya digər zorakılıq edildikdə;

2) qiyam və ya kütləvi iğtişaşlar baş verdikdə;

3) girov saxlanılan şəxs və ya zəbt olunmuş binalar, tikililər, qurğular, torpaq sahələri və nəqliyyat vasitələri azad edildikdə;

4) yaşayış binalarına, habelə müəssisələrin, idarələrin, təşkilatların binalarına qrup halında basqın dəf edildikdə;

5) müqavimət göstərən və ya insan həyatı və sağlamlığı, habelə mülkiyyət əleyhinə cinayət törədən şəxs yaxalandıqda və ya qaçmağa cəhd göstərdikdə;

6) tutulan şəxs tərəfindən silahlı müqavimət göstərildikdə və ya göstərəcəyinə ehtimal etməyə kifayət qədər əsas olduqda;

7) cinayət törədilməsində şübhələndiyinə görə tutulmuş, barəsində həbs qəti-imkan tədbiri seçilmiş və ya müəyyən müddətə azadlıqdan məhrum etmə yaxud ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxsin həbsdən qaçmasının qarşısını aldıqda, habelə bu şəxsin qanunsuz azad edilməsi üçün kənar şəxslər tərəfindən güc işlədildikdə;[44]

8) ictimai təhlükəli əməl törətmiş şəxsi tutub polisə gətirərkən onun müqavimət göstərə biləcəyi və ya qaçma ehtimalı olduqda;

9) həbs olunanları müşayiət etdikdə;

10) şəxsin təhlükəli hərəkətləri ilə özünə və ya ətrafındakılara zərər yetirə biləcəyi ehtimalı olduqda;

11) ictimai təhlükəli əməl törətmiş şəxs tutularkən onu binadan, nəqliyyat vasitəsindən çıxmağa məcbur etdikdə;

12) sürücü öz hərəkətləri ilə insan həyatına və sağlamlığına real təhlükə yaratdıqda, nəqliyyat vasitəsini dayandırmaq haqqında polis əməkdaşının aşkar olan dayanma tələbinə tabe olmadıqda və onun saxlanılmasına başqa imkan olmadıqda (məcburi dayandırma vasitələri).

III. 2-ci və 12-ci bəndləri istisna olmaqla bu maddənin II hissəsində nəzərdə tutulmuş hallarda polis əməkdaşı xidməti itdən də istifadə edə bilər.

*III-I. Elektroşok vasitələri bu maddənin 2-ci hissəsinin 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci bəndlərində nəzərdə tutulmuş hallarda tətbiq edilə bilər. Elektroşok vasitələrini saxlamaq, gəzdirmək və təyinatı üzrə istifadə etmək hüququ olan polis orqanlarının vəzifəli şəxslərinin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.*[45]

IV. Polis əməkdaşı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada aşağıdakı hallarda odlu silah tətbiq edə bilər:

1) bu maddənin II hissəsinin 1-ci, 2-ci, 3-cü və 4-cü bəndlərində nəzərdə tutulmuş hallarda ictimai təhlükəli əməl odlu silah işlədilməklə törədildikdə;

2) bu maddənin II hissəsinin 7-ci bəndində nəzərdə tutulmuş hallar olduqda;

3) insan həyatına qəsd olunduqda və məcburi dayandırma vasitələrinin tətbiqi nəticə vermədikdə;

4) şəxs yaxalanarkən silahlı müqavimət göstərdikdə;

5) insan həyatına real təhlükə yaradan cinayətin qarşısı alındıqda;

*5-1) terrorçuluq və ya dini ekstremizm, yaxud dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsi ilə bağlı cinayətlərin qarşısı alındıqda;*[46]

6) odlu silahın digər şəxs tərəfindən ələ keçirilməsinin qarşısı alındıqda;

7) insana hücum edən və ya real təhlükə yaradan heyvan məhv edildikdə.

V. Bu maddənin IV hissəsində müəyyən edilən hallardan başqa, həmçinin təhlükə və ya xəbərdarlıq siqnalı verildikdə, habelə yardım çağırıldıqda odlu silahdan istifadə edilə bilər.

VI. Bu qanunun tələblərinə uyğun olaraq fiziki qüvvənin, xüsusi vasitələrin və ya odlu silahın tam zəruri hallarda tətbiqi yaranmış təhlükəyə mütənasib olmalıdır. Fiziki

qüvvənin, xüsusi vasitələrin və ya odlu silahın tam zəruri hallarda tətbiqi zamanı hər hansı şəxsin həyatdan məhrum edilməsi yaşamaq hüququnun pozulması kimi qiymətləndirilə bilməz.

VII. Polis əməkdaşı tərəfindən fiziki qüvvənin, xüsusi vasitələrin, odlu silahın tətbiq edildiyi hər bir halda müvafiq polis orqanında xidməti yoxlama aparılmalı və fiziki qüvvənin, xüsusi vasitələrin, odlu silahın qanunauyğunluğu barədə müvafiq rəy verilməlidir.

VIII. İnsanın anatomik bütövlüyünə müxtəlif dərəcəli xəsarətlər yetirməklə dağıdıcı təsir göstərə bilən və ya özünü doğrultmayan yüksək təhlükə mənbəyi olan xüsusi vasitələrin polisin sərəncamına verilməsi qadağandır.

IX. Fiziki qüvvənin, xüsusi vasitələrin və odlu silahın qanunsuz tətbiqinə yol verən polis əməkdaşı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş məsuliyyət daşıyır.

M a d d ə  2 7 . **Fiziki qüvvənin, xüsusi vasitələrin və odlu silahın tətbiqi ilə bağlı polis əməkdaşının vəzifələri**

Fiziki qüvvənin, xüsusi vasitələrin və odlu silahın tətbiqi ilə bağlı vəzifələrini həyata keçirən polis əməkdaşı:

1) insana qarşı fiziki qüvvə, xüsusi vasitələri və ya odlu silahı yalnız son zərurət və ya zəruri müdafiə vəziyyətində, bütün digər təsir imkanlarından istifadə lazımi nəticə vermədikdə, hüquqpozmanın ağırlıq dərəcəsindən və ya onu törədənin şəxsiyyətindən asılı olaraq tətbiq etməlidir;

2) odlu silah işlətməklə basqın edildiyi və ya silahlı müqavimət göstərildiyi hallar istisna olmaqla, fiziki qüvvə, xüsusi vasitələr və odlu silah qadınlara, azyaşlılara, yanında azyaşlı olan, əlilliyi, sağlamlıq imkanlarının məhdudluğu və digər fiziki və psixi qüsurları aşkar bilinən şəxslərə qarşı, habelə insanların toplaşdığı yerlərdə kənar şəxslərin zərər çəkə biləcəyi hallarda odlu silahı tətbiq etməməlidir;[47]

3) yalnız real təhlükənin qarşısı alınarkən odlu silah tətbiq edə bilər;

4) odlu silahı tətbiq etməzdən əvvəl şifahi xəbərdarlıq etməli və ya xəbərdarlıq atəşi açmalıdır (qəfil, yəni birdən-birə gözlənilməz hücum baş verərsə, habelə hücum üçün odlu silahdan, mexaniki nəqliyyat vasitəsindən, təhlükə yaradan yırtıcı, vəhşi və ya başqa heyvandan istifadə olunarsa, polis əməkdaşı xəbərdarlıq etmədən odlu silahı tətbiq edə bilər);

5) fiziki qüvvənin, xüsusi vasitələrin, odlu silahın tətbiq edilməsi nəticəsində zərərçəkənlərə tibbi yardımın göstərilməsini təmin etməlidir;

6) odlu silahın tətbiq edildiyi yerin dəyişdirilməmiş saxlanılmasına çalışmalıdır;

7) fiziki qüvvə, xüsusi vasitələr və odlu silah tətbiq etdiyi hallar barəsində polis əməkdaşı dərhal xidmət etdiyi və ya odlu silahın tətbiq edildiyi ərazinin polis orqanına yazılı məlumat verməlidir;

8) fiziki qüvvənin, xüsusi vasitələrin, odlu silahın tətbiq edilməsi barədə 24 saat ərzində müvafiq prokurora yazılı məlumat verməlidir.

I V  f ə s i l

## POLİSDƏ XİDMƏT KEÇMƏNİN ƏSASLARI

M a d d ə 2 8 . **Polis əməkdaşının xidmətə qəbul edilməsi**

I. Polisdə xidmətə könüllülük əsasında, şəxsi və iş keyfiyyətlərinə, fiziki hazırlığına, sağlamlıq vəziyyətinə və təhsil səviyyəsinə görə polisin üzərinə düşən vəzifələri yerinə yetirməyə qadir olan, hərbi xidmət keçmiş və ya polis təhsil müəssisələrini bitirmiş, yaşı 20-dən aşağı olmayan və Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən Azərbaycan Respublikasının vətəndaşları qəbul olunurlar.[48]

II. Polisdə xidmətə qəbul edilən şəxsin fiziki hazırlığı və sağlamlığı Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi qaydada yoxlanılmalıdır.

III. Polisə xidmətə qəbul edilmiş şəxslər Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada hazırlıq kursları keçməlidirlər.

IV. İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, din xadimləri, fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən müəyyənləşdirilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum edilmiş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, əvvəllər işdə ciddi nöqsanlara, polisdə xidmətlə bir araya sığmayan fəaliyyətlə məşğul olmasına, polisdə xidmətə tam yararsız olmasına, polis əməkdaşının adına ləkə gətirən ~~ləyaqətsiz~~ hərəkətlərə görə polisdən və digər hüquq-mühafizə orqanlarından xaric edilmiş şəxslər polisdə xidmətə qəbul edilə bilməzlər.

V. Daxili işlər orqanlarının digər əməkdaşları, polis təhsil müəssisələrinin müdavimləri ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsinə cəlb edildiyi halda polis əməkdaşı sayılırlar.

VI. Polisdə xidmətə qəbul edilmiş şəxslər və polis təhsil müəssisələrinin müdavimləri hərbi *qeydiyyatdan* çıxarılır və Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanında xüsusi qeydiyyata alınırlar.[49]

VII. Hər bir polis əməkdaşına nümunəsi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti tərəfindən təsdiq edilən xidməti vəsiqə verilir.

VIII. polisdə xidmətə qəbul və xidmət keçmə qaydaları Azərbaycan Respublikasının müvafiq qanunu ilə təsdiq edilən əsasnamə ilə tənzimlənir.

M a d d ə 2 9 . **Polis əməkdaşının andı**

I. Polis əməkdaşı vəzifəsinin icrasına başlamazdan əvvəl təntənəli şəraitdə şəxsi heyətin yığıncağında Azərbaycan Respublikasının Dövlət bayrağı önündə aşağıdakı məzmunda and içir:

*"Mən, polisdə xidmətə başlayan andan Azərbaycan Respublikasına və Azərbaycan xalqına sədaqətlə xidmət etməyə və daim sadiq qalmağa,* Azərbaycan Respublikasının Konstitusiyasını və digər qanunlarını rəhbər tutmağa, insan hüquq və azadlıqlarına hörmətlə yanaşmağa, qanunçuluğa ciddi riayət etməyə, xidməti vəzifələrimi namusla və vicdanla yerinə yetirməyə, intizamlı olmağa, ictimai qaydanı və ictimai

təhlükəsizliyi mərdliklə qorumağa və lazım gələrsə, həyatımı belə əsirgəməməyə and içirəm".[50]

II. Polis əməkdaşının səlahiyyətləri and içdiyi vaxtdan başlanır.

III. Polis əməkdaşı andın mətnini imzalayır və bu sənəd onun şəxsi işində saxlanılır.

M a d d ə 3 0 . **Polis əməkdaşlarının xüsusi rütbələri**

I. Polis əməkdaşlarına Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş xüsusi rütbələr verilir.

II. Polis əməkdaşlarının xüsusi rütbələrinin müəyyənləşdirilməsi, verilməsi əsasları və qaydaları ilə bağlı məsələlər *Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnaməyə* uyğun həll edilir.[51]

M a d d ə 3 1 . **Polis əməkdaşının həvəsləndirilməsi**

I. Polis əməkdaşı vəzifələrinin nümunəvi yerinə yetirilməsinə və xidmətdə əldə edilən yüksək nəticələrə görə həvəsləndirilə bilər.

II. Polis əməkdaşlarına aşağıdakı həvəsləndirmə növləri tətbiq edilir:

1) təşəkkür;

2) pul mükafatı;

3) qiymətli hədiyyə ilə mükafatlandırma;

4) fəxri fərman ilə təltif edilmə;

5) fəxri döş nişanı ilə təltif edilmə;

6) şəxsi silahla mükafatlandırma;

7) vaxtından əvvəl növbəti xüsusi rütbə verilmə;

8) xüsusi rütbənin vəzifə ştatında nəzərdə tutulduğundan bir pillə yuxarı verilməsi.

III. Həvəsləndirmə tədbiri kimi, əvvəllər verilmiş intizam tənbehinin vaxtından əvvəl çıxarılması tətbiq oluna bilər.

IV. Polisin təhsil müəssisələrində bu maddədə göstərilən həvəsləndirmə növlərindən başqa təqaüdün miqdarının artırılması və müdavimlərin təhsil müəssisəsinin yerləşdiyi ərazidən növbədənkənar buraxılması kimi həvəsləndirmələr də tətbiq edilə bilər.

V. Polis əməkdaşları Azərbaycan Respublikasının Dövlət mükafatları ilə təltif olunmasına təqdim edilə bilərlər.

M a d d ə 3 2 . **Polisdə xidmətlə bir araya sığmayan fəaliyyət**

I. Polis əməkdaşı heç bir başqa seçkili və təyinatlı vəzifə tuta bilməzlər, elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə məşğul ola bilməzlər, əmək haqqından, habelə elmi, pedaqoji və yaradıcılıq fəaliyyətinə görə aldıqları vəsaitdən başqa məvacib ala bilməz.

II. Polis əməkdaşı siyasi fəaliyyətlə məşğul ola bilməz və siyasi partiyanın üzvü ola bilməz.

M a d d ə 3 3 . **Polis əməkdaşının məsuliyyəti**

I. Polis əməkdaşı aşağıdakı əsaslara görə intizam məsuliyyətinə cəlb edilir:

1) xidmət apararkən hüquqa zidd hərəkət etdikdə;

2) xidmət və icra intizamını pozduqda;

3) polis əməkdaşı adına ləkə gətirən ~~ləyaqətsiz~~ hərəkət etdikdə.

*4) "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda).*[52]

II. Polis əməkdaşına aşağıdakı intizam tənbehləri tətbiq edilə bilər:

1) məzəmmət;

2) töhmət;

3) şiddətli töhmət;

4) xidməti vəzifəyə tam uyğun olmaması barədə xəbərdarlıq;

5) tutduğu vəzifədən aşağı vəzifəyə keçirmə;

6) xüsusi rütbənin bir pillə aşağı salınması;

*7) xidmətdən xaric edilmə.*[53]

III. Polis təhsil müəssisələrində bu maddənin II hissəsində göstərilən intizam tənbeh növlərindən başqa növbədənkənar xidmət naryadını təyin etmə və polis təhsil müəssisəsindən xaric etmə tənbeh növləri tətbiq edilə bilər.

IV. Polis əməkdaşının intizam məsuliyyətinə cəlb edilməsi qaydası Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş əsasnamə ilə tənzimlənir.

V. Polis əməkdaşı hüquqa zidd hərəkətlərinə görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada məsuliyyət daşıyır.

M a d d ə 3 4 . **Polis əməkdaşının xidmətdən xaric edilməsi**

I. Polis əməkdaşı aşağıdakı hallarda xidmətdən xaric edilə bilər:

1) öz arzusu ilə polisdə xidmətdən çıxmaq barəsində yazılı ərizə verdikdə;

2) and içməkdən imtina etdikdə;

3) cinayət törətdiyinə görə barəsində qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqi haqqında qərar olduqda;

4) polisdə xidmətlə bir araya sığmayan fəaliyyətlə məşğul olduqda;

5) xidmətdə olmanın son yaş həddinə çatdıqda;

6) səhhətinə görə, o cümlədən uzunmüddətli (dörd aydan artıq) xəstəliyi ilə əlaqədar vəzifəsini yerinə yetirməsinin qeyri-mümkünlüyü barədə xüsusi həkim komissiyasının rəyi olduqda;

7) polisdə xidmətə tam yararsız olması barəsində attestasiya komissiyasının rəyi olduqda;

8) başqa dövlətin vətəndaşlığını qəbul etdikdə, Azərbaycan Respublikası *vətəndaşlığına xitam verildikdə* və ya digər dövlət qarşısında öhdəlik götürdükdə; [54]

9) polis əməkdaşı adına ləkə gətirən ~~ləyaqətsiz~~ hərəkət etdikdə;[55]

10) intizam məsuliyyətinə cəlb edildikdən sonra xidmət və icra intizamını il ərzində yenidən kobudcasına pozduqda;

11) ştatlar ixtisar edildikdə;

12) fəaliyyət qabiliyyətsizliyi və məhdud fəaliyyət qabiliyyəti məhkəmə qaydasında müəyyənləşdirildikdə;

13) digər hüquq-mühafizə orqanlarına işə keçdikdə.[56]

II. Polis əməkdaşı xidmətdən xaric edilməsi barədə tabeliyi üzrə yuxarı orqana və ya məhkəməyə müraciət edə bilər.

III. Polis əməkdaşının xidmətdən xaric edilməsi qaydası Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş əsasnamə ilə tənzimlənir.

*IV. Vəfat edən, həlak olan və məhkəmə qaydasında ölmüş və ya xəbərsiz itkin düşmüş elan edilən polis əməkdaşları daxili işlər orqanları əməkdaşlarının siyahısından çıxarılırlar.*[57]

## V fəsil
## POLİS ƏMƏKDAŞININ MADDİ VƏ SOSİAL TƏMİNATLARI

### Maddə 35. **Polis əməkdaşının əməyinin ödənilməsi**

I. Polis əməkdaşının əmək haqqı onun vəzifəsi, xüsusi rütbəsi, xidmət illəri nəzərə alınmaqla müəyyənləşdirilən əsas maaşdan, habelə istirahət, səsvermə, iş günü hesab edilməyən bayram günləri və ümumxalq hüzn günü, gecə vaxtı və əsas iş vaxtından əlavə işləməyə görə qanunvericiliyə müvafiq surətdə müəyyənləşdirilən əlavə haqqlardan ibarətdir. Polis əməkdaşına xidmət şəraitinə görə əlavə haqqlar, birdəfəlik müavinətlər və başqa ödənişlər verilir.[58]

II. Polis əməkdaşının əsas maaşını, əlavə haqqların, kompensasiyaların, müavinətlərin və başqa ödənişlərin məbləği və təyin edilməsi qaydaları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilir.

### Maddə 36. **Polis əməkdaşının pensiyası və sosial təminatı**

Polis əməkdaşının pensiyasının və sosial təminatının məbləği və təyin edilməsi qaydası Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilir.

### Maddə 37. **Polis əməkdaşının dövlət tərəfindən sığortalanması və ona dəyən zərərin ödənilməsi**

I. Polis əməkdaşının həyat və sağlamlığı "Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət büdcəsinin vəsaiti hesabına sığortalanır.[59]

II. Xidməti vəzifələrin icrası zamanı həlak olmuş (vəfat etmiş), xəsarət (yaralanma, travma, kontuziya) almış, sağlamlığına digər zərər dəymiş polis əməkdaşına və ya onun ailəsinə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş qaydada və həcmdə kompensasiya verilir.[60]

III. Xidməti vəzifələrinin icrası zamanı polis əməkdaşının əmlakına dəyən zərər dövlət büdcəsinin vəsaiti hesabına tam həcmdə ödənilir.

M a d d ə 3 8 . **Polis əməkdaşına verilən digər təminatlar**

I. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları mənzil şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan və ya yeni yerdə xidmətə göndərilən polis əməkdaşlarının mənzil ehtiyaclarının ödənilməsi üçün zəruri tədbirlər görməlidirlər.

II. Polisdə xidmət yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan polis əməkdaşlarına və onların ailə üzvlərinə xidmət keçdiyi dövr ərzində müvəqqəti mənzilin kirayəsi üçün yaşayış məntəqəsindən asılı olaraq, qanunvericiliklə müəyyən edilmiş məbləğdə və qaydada pul kompensasiyası ödənilir.[61]

III. Polisdə xidmət yerinin dəyişdirilməsi ilə əlaqədar köç pulu və birdəfəlik kompensasiyalar Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının müəyyənləºdirdiyi qaydada və miqdarda verilir.

IV. Xidməti vəzifələrinin icrası zamanı polis əməkdaşları Azərbaycan Respublikasının ərazisində sərnişin nəqliyyatının bütün növlərindən (taksidən və şəhərlərarası nəqliyyatdan başqa) pulsuz istifadə etmək hüququna malikdirlər.[62]

V. Xidməti ezamiyyətə göndərilən polis əməkdaşının növbədənkənar qaydada nəqliyyatın bütün növlərinə bilet və mehmanxanada yer almaq hüququ vardır.

~~VI. Şəxsi nəqliyyat vasitəsini xidməti məqsədlər üçün istifadə edən polis əməkdaşına nəqliyyat vasitəsinin istismarı üçün dövlət büdcəsinin vəsaiti hesabına müəyyənləşdirilmiş qaydada kompensasiya verilir.~~[63]

VII. Polis əməkdaşları və onların ailə üzvləri dövlət tibb xidməti ilə təmin edilir.

VIII. Xidməti vəzifələrinin icrası ilə əlaqədar polis əməkdaşının və onun ailə üzvlərinin şəxsi və əmlak təhlükəsizliyinə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada təminat verilir.

IX. Polis əməkdaşına Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada məzuniyyət verilir.

X. Polis orqanlarının əməkdaşları Azərbaycan Respublikasının ali icra və qanunvericilik hakimiyyəti orqanlarına, hüquq-mühafizə orqanlarının təşkilati və qanunvericilik təminatı ilə bağlı işə keçdikdə, maddi təminatlar istisna olmaqla polis əməkdaşlarına verilən təminatlar onlara şamil edilir.

## V I f ə s i l
## POLİSİN FƏALİYYƏTİNİN MALİYYƏLƏŞDİRİLMƏSİ VƏ MADDİ-TEXNİKİ TƏMİNATI

M a d d ə 3 9 . **Polisin fəaliyyətinin maliyyələşdirilməsi**

I. Polisin fəaliyyəti Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti, qanunla müəyyənləşdirilmiş qaydada bağlanmış müqavilələr əsasında, habelə dövlət və qeyri-dövlət fondlarının vəsaiti hesabına maliyyələşdirilir.

II. Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən polis əməkdaşlarının sayını və onlara çəkilən xərclərin məbləğini Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı müəyyənləşdirir.

M a d d ə 4 0 . **Polisin fəaliyyətinin maddi-texniki təminatı**

I. Polisin fəaliyyətinin maddi-texniki təminatı qaydasını və normalarını Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı müəyyənləşdirir.

II. Azərbaycan Respublikasının polis orqanları müəyyənləşdirilmiş normalar əsasında xüsusi geyim forması, odlu silah, döyüş sursatı, xüsusi vasitələr, texnika və xüsusi təchiz olunmuş binalar və nəqliyyat vasitələri ilə təmin edilirlər.

III. Xüsusi geyim formasının nümunəsini Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı təsdiq edir.

IV. Polis qurumlarına xidmət binalarını Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları, dəmir yolu, hava və su nəqliyyatı obyektlərində isə müvafiq nəqliyyat idarələri əvəzi ödənilmədən verirlər.

## KEÇİD MÜDDƏALARI

I. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

II. Hakimlərin bu qanunun 21-ci maddəsinin I-III hissələrində, 22-ci maddəsində, 23-cü maddəsinin 8-10-cu bəndlərində, 24-cü maddəsinin III hissəsinin 1-ci bəndində və II-IV hissələrində, 25-ci maddəsinin 6-cı bəndində nəzərdə tutulmuş azadlıq və mənzil toxunulmazlığı hüquqlarının məhdudlaşdırılmasına dair səlahiyyətləri yeni cinayət-prosessual qanunvericiliyi qəbul olunduqdan, habelə "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası qanununa uyğun olaraq hakimlər təyin edildikdən sonra qüvvəyə minir.

III. Hakimlərin azadlıq və mənzil toxunulmazlığı hüquqlarının məhdudlaşdırılmasına dair səlahiyyətləri qüvvəyə minənədək, həmin səlahiyyətlər mövcud cinayət-prosessual qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada həyata keçirilir.

IV. Bu qanunun 18-ci maddəsinin 5 və 7-ci bəndləri xüsusi tibb müəssisələri və qəbuletmə-bölüşdürmə məntəqələri olmayan inzibati-ərazi vahidlərində yarandıqdan sonra tətbiq edilir. Həmin müəssisə və məntəqələr olmayan inzibati-ərazi vahidlərində mövcud qanunvericiliklə nəzərdə tutulmuş qayda tətbiq edilir.

**Azərbaycan Respublikasının prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 28 oktyabr 1999-cu il
№ 727-IQ

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

**1.** 12 oktyabr 2001-ci il tarixli 207-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 11, maddə 699**)

**2.** 15 noyabr 2001-ci il tarixli 214-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 12, maddə 731**)

**3.** 15 mart 2002-ci il tarixli 272-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 3, maddə 118**)

**4.** 24 may 2002-ci il tarixli 333-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 6, maddə 328**)

**5.** 24 dekabr 2002-ci il tarixli 408-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 1, maddə 22**)

**6.** 20 iyun 2003-cü il tarixli 484-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 8, maddə 424**)

**7.** 30 dekabr 2003-cü il tarixli 568-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 2, maddə 57**)

**8.** 5 mart 2004-cü il tarixli 598-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 133**)

**9.** 30 dekabr 2005-ci il tarixli 49-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 2, maddə 74**)

**10.** 30 dekabr 2005-ci il tarixli 50-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 fevral 2006-cı il**)

**11.** 10 oktyabr 2006-cı il tarixli 159-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 11, maddə 927**)

**12.** 16 iyun 2007-ci il tarixli 389-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 8, maddə 756**)

**13.** 1 aprel 2008-ci il tarixli 576-IIIQD nömrəli Azərbaycan Respublikasının (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 4, maddə 251**)

**14.** 2 iyun 2008-ci il tarixli **622-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 8 avqust 2008-ci il, № 174, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 696)**

**15.** 13 iyun 2008-ci il tarixli 648-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №7, maddə 602**)

**16.** 2 oktyabr 2008-ci il tarixli 690-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ((**"Azərbaycan" qəzeti, 29 oktyabr 2008-ci il, № 241, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 10, maddə 883**)

**17.** 28 aprel 2009-cu il tarixli **807-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 26 iyun 2009-cu il, № 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 06, maddə 399)**

**18.** 26 may 2009-cu il tarixli 818-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 24 iyun 2009-cu il, № 135, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 06, maddə 401)**

**19.** 01 fevral 2010-cu il tarixli **944-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 24 fevral 2010-cu il, № 43, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 2, maddə 74)**

20. 1 fevral 2010-cu il tarixli **951-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 19 mart 2010-cu il, № 62, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 03, maddə 171)**

21. 27 dekabr 2013-cü il tarixli **870-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 11 fevral 2014-cü il, № 29, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 2, maddə 87)**

22. 28 oktyabr 2014-cü il tarixli **1086-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 14 noyabr 2014-cü il, № 248; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1360)**

23. 03 aprel 2015-ci il tarixli **1239-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 05 may 2015-ci il, № 095, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 5, maddə 486)**

24. 06 oktyabr 2015-ci il tarixli **1370-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 21 noyabr 2015-ci il, № 256, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 11, maddə 1277)**

25. 04 dekabr 2015-ci il tarixli **30-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 06 dekabr 2015-ci il, № 269, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 12, maddə 1444)**

26. 29 dekabr 2015-ci il tarixli **85-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 4 fevral 2016-cı il, № 25; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 02, I kitab, maddə 197)**

27. 1 fevral 2016-cı il tarixli **120-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 28 fevral 2016-cı il, № 46; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 02, II kitab, maddə 216)**

28. 23 fevral 2016-cı il tarixli **131-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 4 mart 2016-cı il, № 50, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 03, maddə 400)**

29. 29 aprel 2016-cı il tarixli **214-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 13 may 2016-cı il, № 102, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 5, maddə 838)**

30. 2 oktyabr 2017-ci il tarixli **789-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 20 oktyabr 2017-ci il, № 230, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 10, maddə 1770)**

31. 15 dekabr 2017-ci il tarixli **933-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 3 fevral 2018-ci il, № 25, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 1, maddə 15)**

32. 29 iyun 2018-ci il tarixli **1210-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 13 iyul 2018-ci il, № 153, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 7, I kitab, maddə 1426)**

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 5 mart 2004-cü il tarixli 598-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 133**) ilə 1-ci maddənin dördüncü və beşinci abzasları yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~tutulma - hər hansı şəxsin azadlığının qısa müddətə məhdudlaşdırılmasıdır;~~

~~həbs - inzibati xətanı törədilməsinə görə inzibati tənbeh kimi və ya cinayət işi üzrə qətimkan tədbiri kimi şəxsin azadlığının məhdudlaşdırılmasıdır;~~

[2] 28 oktyabr 2014-cü il tarixli **1086-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 14 noyabr 2014-cü il, № 248; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1360)** ilə 1-ci maddənin 7-ci abzasında "**əl-qolu bağlama**" sözlərindən sonra "**və elektroşok**" sözləri əlavə edilmişdir.

[3] 1 fevral 2016-cı il tarixli **120-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 28 fevral 2016-cı il, № 46; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 02, II kitab, maddə 216)** ilə 1-ci maddənin birinci hissəsinin yeddinci abzasında nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda səkkizinci abzas əlavə edilmişdir.

[4] 30 dekabr 2005-ci il tarixli 50-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 fevral 2006-cı il**) ilə 3-cü maddənin II hissəsinə 2-1-ci bənd əlavə edilmişdir.

[5] 30 dekabr 2003-cü il tarixli 568-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 2, maddə 57**) ilə 3-cü maddənin II hissəsinin 2-ci və 9-cu bəndlərində "**hüquqpozma**" sözü "**xəta**" sözü ilə əvəz edilmişdir.

[6] 2 oktyabr 2008-ci il tarixli 690-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ((**"Azərbaycan" qəzeti, 29 oktyabr 2008-ci il, № 241, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 10, maddə 883**) ilə 3-cü maddəsinin II hissəsinin 12-ci bəndində "**əməliyyat-axtarış fəaliyyətini**" sözlərindən sonra "**müvafiq icra hakimiyyəti orqanı ilə birgə**" sözləri əlavə edilmişdir.

[7] 30 dekabr 2003-cü il tarixli 568-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 2, maddə 57**) ilə 4-cü maddənin II hissəsinin 2-ci bəndində "**hüquqpozmaların**" sözü "**xətaların**" sözü ilə əvəz edilmişdir.

[8] 5 mart 2004-cü il tarixli 598-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 133**) ilə 6-cı maddənin II hissəsinə "**dövlət,**" sözündən sonra "**ailə,**" sözü əlavə edilmişdir.

[9] 26 may 2009-cu il tarixli 818-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 24 iyun 2009-cu il, № 135, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 06, maddə 401)** ilə 10-cu maddəsinə yeni məzmunda V hissə əlavə edilmişdir.

[10] 30 dekabr 2005-ci il tarixli 50-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 fevral 2006-cı il**) ilə 13-cü maddənin I hissəsinə 6-1-ci bənd əlavə edilmişdir.

[11] 30 dekabr 2003-cü il tarixli 568-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 2, maddə 57**) ilə 14-cü maddənin 2-ci bəndində "**hüquqpozma**" sözü "**xəta**" sözü ilə əvəz edilmişdir.

[12] 29 iyun 2018-ci il tarixli **1210-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 13 iyul 2018-ci il, № 153, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 7, I kitab, maddə 1426)** ilə 14-cü maddənin birinci hissəsinin 3-cü bəndində "**və məhkəmələrin**" sözləri "**, məhkəmələrin, müvafiq icra hakimiyyəti orqanının icra və probasiya qurumlarının**" sözləri ilə əvəz edilmişdir.

[13] 27 dekabr 2013-cü il tarixli **870-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 11 fevral 2014-cü il, № 29, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 2, maddə 87)** ilə 14-cü maddənin 4-cü bəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~4) qanunla müəyyənləşdirilmiş qaydada tutulan şəxsi müvafiq orqanlara təhvil verilənədək saxlamaq;~~

[14] 06 oktyabr 2015-ci il tarixli **1370-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 21 noyabr 2015-ci il, № 256, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 11, maddə 1277)** ilə 14-cü maddəsinə yeni məzmunda 7-1-ci bənd əlavə edilmişdir.

[15] 30 dekabr 2005-ci il tarixli 50-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 2, maddə 75**) ilə Qanuna 15-1-ci maddə əlavə edilmişdir.

[16] 29 dekabr 2015-ci il tarixli **85-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 4 fevral 2016-cı il, № 25; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 02, I kitab, maddə 197)** ilə 15-1-ci maddəsinin 1-ci bəndində və 19-1-ci maddəsinin 1-ci və 3-cü bəndlərinə "**öz vəzifələrini**" sözlərindən sonra "**üzrlü səbəblər olmadan**" sözləri əlavə edilmişdir.

[17] 30 dekabr 2003-cü il tarixli 568-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 2, maddə 57**) ilə 17-ci maddənin 2-ci bəndində "**hüquqpozma**" sözü "**xəta**" sözü ilə əvəz edilmişdir.

[18] 5 mart 2004-cü il tarixli 598-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 133**) ilə 17-ci maddənin 3-cü və 5-ci bəndlərində "**bu Qanunla müəyyənləşdirilmiş hallarda**" sözləri "**qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada**" sözləri ilə əvəz edilmişdir.

[19] 15 dekabr 2017-ci il tarixli **933-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 3 fevral 2018-ci il, № 25, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 1, maddə 15)** ilə 18-ci maddənin birinci hissəsinin 3-cü bəndində "**baxış keçirmək**" sözləri "**axtarış aparmaq**" sözləri ilə əvəz edilmişdir.

[20] 30 dekabr 2003-cü il tarixli 568-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 2, maddə 57**) ilə 18-ci maddənin 1-ci, 3-cü və 4-cü bəndlərində "**hüquqpozma**" sözü "**xəta**" sözü ilə əvəz edilmişdir.

[21] 12 oktyabr 2001-ci il tarixli 207-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 11, maddə 699**) ilə 18-ci maddənin 6-cı bəndinə "**fotoşəkilini çəkmək və**" sözlərindən sonra "**Qanunla müəyyən edilmiş hallarda**" sözləri əlavə edilmişdir.

[22] 30 dekabr 2005-ci il tarixli 50-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 2, maddə 75**) ilə 18-ci maddənin 9-cu bəndi çıxarılmışdır.

[23] 30 dekabr 2005-ci il tarixli 50-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 2, maddə 75**) ilə Qanuna 19-1-ci maddə əlavə edilmişdir.

[KM] 27 aprel 2001-ci il tarixli Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin Qərarı (**"Azərbaycan" qəzeti 27 aprel 2001-ci il, № 96,Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı №3/2001)** ilə 1. «Polis haqqında» Azərbaycan Respublikası Qanununun 21-ci maddəsində göstərilmiş tutulmanın 48 saatdan artıq olmayan müddəti Cinayət-Prosessual Məcəlləsinin 148-ci maddəsinə əsasən cinayət törətməkdə şübhəli şəxsə qarşı tam şamil edilir, inzibati xəta törətmiş şəxsə

qarşı isə bu müddətin daxilində olan İnzibati Xətalar Məcəlləsinin 399-cu maddəsində nəzərdə tutulmuş müddətlərin hədləri əsas götürülməlidir.

[24] 30 dekabr 2003-cü il tarixli 568-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 2, maddə 57**) ilə 21-ci maddənin III hissəsinin birinci abzasından "48 saatdan artıq olmayan müddətə" sözləri çıxarılmışdır.

[25] 1 fevral 2016-cı il tarixli **120-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 28 fevral 2016-cı il, № 46; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 02, II kitab, maddə 216)** ilə 21-ci maddənin III hissəsinin 1-ci və 2-ci bəndlərindən "**və ya inzibati xəta**" sözləri çıxarılmışdır.

[26] 1 fevral 2016-cı il tarixli **120-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 28 fevral 2016-cı il, № 46; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 02, II kitab, maddə 216)** ilə 21-ci maddənin III hissəsinin 3-cü bəndində "**mənzilində cinayətin və ya inzibati xətanın**" sözləri "**yaşayış yerində, nəqliyyat vasitəsində cinayətin**" sözləri ilə əvəz edilmişdir.

[27] 1 fevral 2016-cı il tarixli **120-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 28 fevral 2016-cı il, № 46; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 02, II kitab, maddə 216)** ilə 21-ci maddəyə yeni məzmunda III-I hissə əlavə edilmişdir.

[28] 5 mart 2004-cü il tarixli 598-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 133**) ilə 21-ci maddənin IV hissəsi çıxarılmışdır.

[29] 30 dekabr 2003-cü il tarixli 568-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 2, maddə 57**) ilə 22-ci maddənin II hissəsində "**hüquqpozma**" sözü "**xəta**" sözü ilə əvəz edilmişdir.

1 fevral 2016-cı il tarixli **120-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 28 fevral 2016-cı il, № 46; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 02, II kitab, maddə 216)** ilə 22-ci maddənin II hissəsində "**III hissəsində**" sözləri "**III və III-I hissələrində**" sözləri ilə əvəz edilmişdir.

[30] 5 mart 2004-cü il tarixli 598-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 133**) ilə 23-cü maddənin mətni I hissə hesab edilmiş, I hissənin 3-cü bəndi isə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~3) tutulan və ya həbsə alınan anda müqavimət göstərən və ya anlaqsızlıq vəziyyətində olan şəxslər istisna olmaqla, hər hansı şəxsə onun tutulmasının və ya həbsə alınmasının əsaslarını bildirməli və hüquqlarını izah etməlidir;~~

29 aprel 2016-cı il tarixli **214-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 13 may 2016-cı il, № 102, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 5, maddə 838)** ilə 23-cü maddəsinin I hissəsinin 3-cü bəndində "**əsaslarını**" sözü "**səbəbini, şübhənin mahiyyətini**" sözləri ilə əvəz edilmişdir və həmin bəndə "**hüquqlarını**" sözündən sonra "**ona aydın olan dildə**" sözləri əlavə edilmişdir.

[31] 5 mart 2004-cü il tarixli 598-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 133**) ilə 23-cü maddənin I hissəsinin 5-ci bəndindən "**xüsusi təhlükəli dövləti cinayət törətmiş şəxs istisna olmaqla,**" sözləri çıxarılmış və həmin bənddə "**məlumat verməlidir**" sözlərindən sonra "**(qocaların, yetkinlik yaşına çatmayanların və**

**psixi vəziyyətinə görə imkanı olmayan tutulmuş şəxslərin ailə üzvlərinə müvəqqəti saxlama yerlərinin müdiriyyəti öz təşəbbüsü ilə xəbər verir)** ;" sözləri əlavə edilmişdir.

27 dekabr 2013-cü il tarixli **870-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 11 fevral 2014-cü il, № 29, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 2, maddə 87)** ilə 23-cü maddənin 5-ci bəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~5) tutulmuş və ya həbsə alınmış şəxsin yaxın qohumlarına, onun tələbi ilə iş və ya təhsil yerinə tutulması və ya həbsə alınması barədə təxirəsalınmadan məlumat verməlidir (qocaların, yetkinlik yaşına çatmayanların və psixi vəziyyətinə görə imkanı olmayan tutulmuş şəxslərin ailə üzvlərinə müvəqqəti saxlama yerlərinin müdiriyyəti öz təşəbbüsü ilə xəbər verir);~~

[32] 20 iyun 2003-cü il tarixli 484-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cüil, № 8, maddə 424**) ilə 23-cü maddənin 6-cı bəndində "**onun**" sözü "**habelə müdafiəçinin iştirakı məcburi olan hallarda həmin şəxsin**" sözləri ilə əvəz edilmişdir.

[33] 20 iyun 2003-cü il tarixli 484-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 8, maddə 424**) ilə 23-cü maddənin I hissəsinin 8-ci və 9-cu bəndləri çıxarılmışdır.

[34] 5 mart 2004-cü il tarixli 598-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 133**) ilə 23-cü maddəyə II hissə əlavə edilmişdir.

[35] 5 mart 2004-cü il tarixli 598-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 133**) ilə 24-cü maddənin I hissəsində "**aşağıdakı hallarda**" sözlərindən sonra "**qanunvericiliklə müəyyən edilmiş qaydada**" sözləri əlavə edilmişdir.

1 fevral 2016-cı il tarixli **120-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 28 fevral 2016-cı il, № 46; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 02, II kitab, maddə 216)** ilə 24-cü maddənin I hissəsində "**mənzilə**" sözü "**yaşayış yerinə**" sözləri ilə əvəz edilmişdir.

[36] 5 mart 2004-cü il tarixli 598-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 133**) ilə 24-cü maddənin II hissəsində "**şübhələri olduğu halda**" sözlərindən sonra "**qanunvericiliklə müəyyən edilmiş qaydada**" sözləri əlavə edilmişdir.

24 may 2002-ci il tarixli 333-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 6, maddə 328**) ilə 24-cü maddənin II hissəsinin 2-ci bəndində "**azadlıqdan məhrum etmə yerlərindən**" sözləri "**cəzaçəkmə müəssisələrindən**" sözləri ilə əvəz edilmişdir.

1 fevral 2016-cı il tarixli **120-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 28 fevral 2016-cı il, № 46; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 02, II kitab, maddə 216)** ilə 24-cü maddənin II hissəsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~II. Hakimin qərarı olmadan polis əməkdaşı mənzilə orada yaşayanların iradəsi ziddinə aşağıdakı əsaslardan birinin olduğu barədə dəqiq məlumatı və ya əsaslı şübhələri olduğu halda qanunvericiliklə müəyyən edilmiş qaydada daxil ola bilər:~~

~~1) mənzildə şəxsiyyət əleyhinə ağır cinayətin və ya xüsusi təhlükəli dövləti cinayətin törədilməsi;~~

~~2) cinayət törətmiş, həbsdən və ya cəzaçəkmə müəssisələrindən qaçmış şəxsin həmin mənzildə gizlənməsi;~~

~~3) cinayət törətmiş şəxsin bilavasitə “isti izlərlə” təqib edilməsi;~~

~~4) mənzildə insan meyitinin olması;~~

~~5) mənzildə insan həyatı və ya sağlamlığı üçün real təhlükənin olması, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən cinayət məsuliyyətinə səbəb ola bilən əxlaqsız hərəkətlərin edilməsi.~~

[37] 5 mart 2004-cü il tarixli 598-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 133**) ilə 24-cü maddənin IV hissəsi çıxarılmışdır.

[38] 1 fevral 2016-cı il tarixli **120-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 28 fevral 2016-cı il, № 46; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 02, II kitab, maddə 216)** ilə 25-ci maddədə I hissənin 1-ci, 2-ci (hər iki halda) və 5-ci bəndlərində “**mənzilə**” sözü “**yaşayış yerinə**” sözləri ilə əvəz edilmişdir.

[39] 1 fevral 2016-cı il tarixli **120-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 28 fevral 2016-cı il, № 46; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 02, II kitab, maddə 216)** ilə 25-ci maddədə I hissənin 3-cü (hər iki halda), 4-cü və 7-ci bəndlərində “**mənzilə**” və “**mənzildə**” sözləri müvafiq olaraq “**yaşayış yerinə**” və “**yaşayış yerində**” sözləri ilə əvəz edilmişdir.

[40] 5 mart 2004-cü il tarixli 598-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 133**) ilə 25-ci maddənin mətni I hissə hesab edilmiş, I hissənin 6-cı bəndi isə çıxarılmışdır.

[41] 5 mart 2004-cü il tarixli 598-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 133**) ilə 25-ci maddənin I hissəsinin 7-ci bəndində "**yaşayan şəxslərin intim**" sözləri "**yaşayanların şəxsi və ailə**" sözləri ilə əvəz edilmişdir.

[42] 5 mart 2004-cü il tarixli 598-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 133**) ilə 25-ci maddəyə II hissə əlavə edilmişdir.

1 fevral 2016-cı il tarixli **120-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 28 fevral 2016-cı il, № 46; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 02, II kitab, maddə 216)** ilə 25-ci maddənin II hissəsində “**qanunvericiliyində**” sözü “**Cinayət-Prosessual Məcəlləsində və “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda**” sözləri ilə əvəz edilmişdir.

[43] 30 dekabr 2003-cü il tarixli 568-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 2, maddə 57**) ilə 26-cı maddənin I hissəsinin 2-ci bəndində "**hüquqpozma**" sözü "**xəta**" sözü ilə əvəz edilmişdir.

[44] 24 may 2002-ci il tarixli 333-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 6, maddə 328**) ilə 26-cı maddənin II hissəsinin 7-ci bəndində "**azadlıqdan məhrum etmə cəzasına**" sözləri "**müəyyən müddətə azadlıqdan məhrum etmə yaxud ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya**" sözləri ilə əvəz edilmişdir.

[45] 28 oktyabr 2014-cü il tarixli **1086-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 14 noyabr 2014-cü il, № 248; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1360)** ilə 26-cı maddəyə yeni məzmunda III-I hissə əlavə edilmişdir.

[46] 04 dekabr 2015-ci il tarixli **30-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 06 dekabr 2015-ci il, № 269, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 12, maddə 1444)** ilə 26-cı maddəsinin IV hissəsində yeni məzmunda 5-1-ci bənd əlavə edilmişdir.

[47] 13 iyun 2008-ci il tarixli 648-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №7, maddə 602**) ilə 27-ci maddəsinin 2-ci bəndində **"əlilliyi"** sözündən sonra **", sağlamlıq imkanlarının məhdudluğu"** sözləri əlavə edilmişdir.

[48] 28 aprel 2009-cu il tarixli **807-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 26 iyun 2009-cu il, № 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 06, maddə 399)** ilə 28-ci maddəsinin I hissəsində "**aşağı olmayan**" sözlərindən sonra "**və Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən**" sözləri əlavə edilmişdir.

[49] 23 fevral 2016-cı il tarixli **131-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 4 mart 2016-cı il, № 50, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 03, maddə 400)** ilə 28-ci maddənin VI hissəsində "**mükəlləfiyyət qeydiyyatından**" sözləri "**qeydiyyatdan**" sözü ilə əvəz edilmişdir.

[50] 01 fevral 2010-cu il tarixli **944-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 24 fevral 2010-cu il, № 43, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 2, maddə 74)** ilə 29-cu maddəsinin I hissəsinin ikinci abzasında "**Polisdə xidmətə başlayan andan**" sözləri "**Mən, polisdə xidmətə başlayan andan Azərbaycan Respublikasına və Azərbaycan xalqına sədaqətlə xidmət etməyə və daim sadiq qalmağa,** " sözləri ilə əvəz edilmişdir.

[51] 24 dekabr 2002-ci il tarixli 408-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 1, maddə 22**) ilə 30-cu maddənin II hissəsində "**Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə**" sözləri "**Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnaməyə**" sözləri ilə əvəz edilmişdir.

[52] 10 oktyabr 2006-cı il tarixli 159-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 11, maddə 927**) ilə 33-cü maddəsinin I hissəsinə yeni məzmunda 4-cü bənd əlavə edilmişdir.

[53] 24 dekabr 2002-ci il tarixli 408-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 1, maddə 22**) ilə 33-cü maddənin II hissəsinə 7-ci bənd əlavə edilmişdir.

[54] 03 aprel 2015-ci il tarixli **1239-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 05 may 2015-ci il, № 095, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 5, maddə 486)** ilə 34-cü maddəsinin I hissəsinin 8-ci bəndində "**vətəndaşlığından çıxdıqda**" sözləri "**vətəndaşlığına xitam verildikdə**" sözləri ilə əvəz edilmişdir.

[55] 2 oktyabr 2017-ci il tarixli **789-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 20 oktyabr 2017-ci il, № 230, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 10, maddə 1770)** ilə 28-ci maddənin IV hissəsindən, 33-cü maddənin I hissəsinin 3-cü bəndindən və 34-cü maddənin I hissəsinin 9-cu bəndindən "**ləyaqətsiz**" sözü çıxarılmışdır.

[56] 24 dekabr 2002-ci il tarixli 408-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 1, maddə 22**) ilə 34-cü maddənin I hissəsinin 13-cü bəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~13) məhkəmə qaydasında ölmüş elan edildikdə və ya xəbərsiz itkin düşmüş sayıldıqda.~~

[57] 24 dekabr 2002-ci il tarixli 408-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 1, maddə 22**) ilə 34-cü maddəyə IV hissə əlavə edilmişdir.

[58] 16 iyun 2007-ci il tarixli 389-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 8, maddə 756**) ilə 35-ci maddəsinin I hissəsinin birinci cümləsində "bayram" sözündən əvvəl "iş günü hesab edilməyən" sözləri əlavə edilmişdir.

1 fevral 2010-cu il tarixli **951-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 19 mart 2010-cu il, № 62, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 03, maddə 171) ilə** 35-ci maddəsinin I hissəsinin birinci cümləsində "**istirahət və iş günü hesab edilməyən bayram günləri**" sözləri "**istirahət, səsvermə, iş günü hesab edilməyən bayram günləri və ümumxalq hüzn günü**" sözləri ilə əvəz edilmişdir.

[59] 30 dekabr 2005-ci il tarixli 49-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 2, maddə 74**) ilə 37-ci maddəsinin I hissəsinə "**həyat və sağlamlığı**" sözlərindən sonra "**Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq**" sözləri əlavə edilmişdir.

[60] 2 iyun 2008-ci il tarixli **622-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 8 avqust 2008-ci il, № 174, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 696)** ilə 37-ci maddəsinin II hissəsində "**həlak olmuş, bədən xəsarəti almış**" sözləri "**həlak olmuş (vəfat etmiş), xəsarət (yaralanma, travma, kontuziya) almış**" sözləri ilə əvəz edilmişdir.

[61] 1 aprel 2008-ci il tarixli **576-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 4, maddə 251**) ilə "Polis haqqında" Azərbaycan Respublikası Qanununun **38-ci maddəsinin II hissəsi** yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~II. Polisdə xidmət yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan və bu səbəbdən kirayədə yaşamağa məcbur olan polis əməkdaşı Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi miqdarda ödəniş ala bilər.~~

[62] 15 noyabr 2001-ci il tarixli 214-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 12, maddə 731**) ilə 38-ci maddənin 4-cü bənd çıxarılmışdır. Əvvəlki redaksiyada deyilirdi:

~~IV. Polis əməkdaşının Azərbaycan Respublikası ərazisində ictimai nəqliyyatın bütün növlərindən (taksidən və şəhərlərarası nəqliyyatdan başqa) pulsuz istifadə etmək hüququ vardır.~~

15 mart 2002-ci il tarixli 272-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 3, maddə 118**) ilə 38-ci maddəyə 4-cü bənd əlavə edilmişdir.

[63] 15 noyabr 2001-ci il tarixli 214-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 12, maddə 731**) ilə 38-ci maddənin 6-cı bənd çıxarılmışdır.